**Tural Məmmədov**

**UOT: 338.48; JEL: R59.**

# Naxçıvan Muxtar Respublikasında turizmin davamlı inkişafının əsas xüsusiyyətləri

***Xülasə***

*Məqalədə Naxçıvan iqtisadi rayonunda "davamlı inkişaf" termininin turizmə tətbiqi və turizm sahəsinin inkişaf istiqamətlərinə uyğun müəyyən məlumatlar verilmişdir.*

***Açar sözlər:*** *ekoturizm, turizm məhsulu, turizm resursu, kənd turizmi*

## Giriş

"Davamlı inkişaf" dedikdə cəmiyyətin fasiləsiz, sabit və uzunmüddətli inkişafının təmin olunması prosesi nəzərdə tutulur. "Davamlı inkişaf" bəşəriyyətin ən müasir, mütərəqqi gələcək nəsillərin tələblərini ödəyən, onların imkanlarını məhdudlaşdırmayan, insan potensialı və kapitalını, yeni biliklərin səfərbər olunmasını əsas şərt kimi qəbul edən, ətraf mühitin mühafizəsini və yaxşılaşdırılmasını nəzərdə tutan inkişaf yoludur. Turizmin davamlı inkişafı anlayışı daha geniş bir anlayış olan "Davamlı inkişaf"-dan gələn və bu inkişafın turizm sektoruna aid olan bir terminidir. "Davamlı inkişaf" terminini ilk dəfə 1987-ci ildə BMT-nin Ətraf mühit və inkişafı üzrə Dünya Konvensiyasında "Ortaq gələcəyimiz" (Bruntland raporu) başlıqlı raporunda işlədilmişdir. Bu termin görünüşdə bir-birindən fərqli olan iqtisadi inkişaf və ətraf mühitin qorunması anlayışlarını ilk dəfə bu konvensiyada işlədilmişdir. Davamlı inkişaf anlayışı haqda fərqli görüşlər olsa da davamlı inkişafın dəyişik anlayışları bu konvensiyada öz əksini tapmışdır. Davamlı inkişaf anlayışı ətraflı araşdırılarkən ekoloji cəhətdən təbiətə təsiri ilə bağlı fikir ayrılıqları da formalaşmışdır. Bu mövzular insan sağlamlığına təsir edən təbii resurslardan istifadəsinin bərabər bölünməsi vaxtı ictimai, iqtisadi və ekoloji proseslərə müsbət və ya mənfi təsiri araşdırılır. Turizmin davamlı inkişafı ətraf mühitlə qarşılıqlı əlaqədə olaraq turizmin inkişafı üçün konkret addımlar atılır. Bu fəaliyyətin əsas faktoru: Sürətli inkişafın nəticəsində bu xidmət sahəsinin ətraf mühitə təsirinin göstəriciləri nəzərə alınmalıdır. Əslində turizmin ətraf mühitə təsirini ekoturizm sahəsi öyrənir, cəmiyyətdə turizmin inkişafı nəticəsində təbiətdə tarazlığın pozulmasının qarşısını alan proqramlar və layihələr qəbul edilərək turizmin inkişafı zamanı yaranan müəyyən problemlərin qarşısı alınır. Ekoloji tarazlıqların və sosial sferanın davamlılığını təmin etmək üçün turizmin bu anlayışı regional gəlir gətirən arqument kimi istifadə edilə bilər. Ekoturizm ətraf mühitə zərərli deyildir və buna görə ümumiyyətlə turizmin davamlı inkişafı kimi başa düşülür. Ekoturizm buna görə ətraf mühiti qoruyan təşkilatlar tərəfindən təbiət üçün dünya miqyasında bir inkişaf olaraq qəbul edilir və dəstəklənir. Ekoturizm təsirli idarəetmə və dinamik satış məqsədilə çöl inkişafı əhəmiyyətli nəticələr əldə edir. Davamlı inkişafa xidmət edən faktorlardan biri də mənəvi-psixoloji amillərin formalaşdırılmasıdır.

## Turizmin davamlı inkişafı

Turizmin davamlı inkişafı anlayışı bir çox naməlum və əlaqəli terminlər olan ekoturizm və turizm obyektlərinin cavabdehliyi ilə əlaqəli anlayışlardan yaranmışdır. Nəticədə turizmin davamlı inkişafının təyin olunması, onun tətbiq edilməsi və qiymətləndirilməsi mürəkkəb prosesə çevrilmişdir. Getdikcə çirklənən dünyamızın həm təbii, həm də mədəni zənginliklərin düzgün istifadəsi və müəyyən bir formada əldə edilən qazancın regionda yaşayanlar arasında ədalətli bölüşdürülməsi əhəmiyyətli bir fəaliyyət olaraq görülməkdədir. İqtisadi artımın istifadəsində infrastruktur xərcləri daha tez mənfəət gətirən və rentabellik səviyyəsinə görə yüksək sahə olduğuna görə prioritet sahə kimi geniş yer tutur. Mədəni turizm sahəsinin bölməsi ilə funksional əhəmiyyət kəsb edən sağlamlıq obyektləri,



*©Tural Məmmədov AMEA İqtisadiyyat İnstitutu, e.i. E-mail:tural.memmedov81@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

səhiyyənin geniş mülkiyyətinin artması turizm obyektlərinin, subyektlərinin funksional təyinatını və onun resurs quruluşunu genişləndirir (2, s.269). Turizm geniş iqtisadi, ictimai, mədəni və ekoloji nəticələri olan sosial-mədəni və iqtisadi bir faktdır, yalnız müsbət iqtisadi təsirləri yaradaraq sürətlə artan bir iqtisadi fəaliyyət deyil, eyni zamanda süni və təbii ətraf mühit üzərində təxribata səbəb ola bilən ictimai və mədəni problemlər yarada bilən bir tətbiq sahəsi kimi olaraq da qəbul edilməkdədir. Turizmin davamlı inkişafı mədəni və ekoloji zərərləri minumuma endirməyi, müştəri (ziyarətçi) məmnuniyyətini optimallaşdırmağı, region üçün uzun dövrlü iqtisadi inkişafı maksimum səviyyədə təmin etmək məqsədi daşıyır.

Turizmin davamlı inkişafında əsas anlayışlardan biri də turizm məhsulu anlayışıdır. Ancaq davamlı inkişafda turizm məhsulu anlayışı turizm məhsulundan gələn gəlir vergisi bəyannaməsindən çox turizm məhsulunun cəmiyyət üçün iqtisadi faydaları əsas götürülmüşdür. Bu iqtisadi faydada turizm məhsulunun tətbiqindən çox, mədəni və ekoloji sahələrin qoruması üçün atılan addımlar diqqət mərkəzindədir. Bir neçə biznes turizm inkişaf edən turizm regionlarında mədəni, ictimai və ekoloji rifahını təmin edən faydaların müzakirə edilməsinə baxmayaraq indiyə qədər belə iştiraklara təyin üçün heç bir konkret təklif irəli sürülməmişdir. Turizmin davamlı inkişafı təbiət, insan və turistik destinasyon (turizm resurslarını özündə birləşdirən turizm məhsulu və xidmətlər ilə turistlərin qarşılaşdıqları bütün sahə) üçlüsü şəklində qarşılıqlı fəaliyyəti və idarə edilməsi əhəmiyyət daşıyır. Davamlı turizm təkcə turizm gəlirlərindən bir mövsüm ərzində turizmdən maksimum gəlir əldə etmək və ya turizm ehtiyatlarından qənaət etmədən istifadə etməklə fəaliyyət göstərmək deyildir. Bu fəaliyyət elə qurulmalıdır ki, təbii və mədəni ehtiyatlar kimi, turizm ehtiyatları da səmərəli istifadə şərti ilə insan tələbatlarının ödənilməsinə istiqamətlənməlidir. Davamlı turizm həmin turizm ehtiiyatlarının turizm məhsulu dövriyyəsinə cəlb olunmaqla yaradılmış infrastrukturun və əmək ehtiyatlarının gücündən maksimum şəkildə istifadə edilməsidir. Sosial və ekoloji maraqları gözləməklə təşkil edilən turizm sahəsindən gələn gəlir heç bir mənfi təsir yaratmadan turizmin daha sonrakı inkişafı üçün də zəmin yaradır. Buna maraqlı olan subyektlər dövlət, yerli əhali, turizm xidməti göstərən kiçik və orta müəssisələr və s.dir. Turizm ehtiyatları təkcə bu ehtiyatlardan istifadə edən yerli əhaliyə aid deyil, bütün bəşəriyyətin ümumi dəyəridir.

Turizm müasir dövrdə ən geniş, ən sürətli inkişaf edən sahələrdən biridir. Bu sürətli inkişaf turizm məhsullarının və turizm obyektlərinin qruplaşdırılmasını yaradır. Turizm fəaliyyətinin əsasən təbii resurslarla əlaqəli olması davamlı inkişaf sisteminə uyğundur (3, s. 432). Davamlı inkişafda turizm, əslində ətraf mühit ilə birbaşa əlaqəlidir. Mədəni bütünlüyün, ekoloji müddətlərin, bioloji müxtəlifliyin və həyati funksiyaların həm yerli əhali, həm də ziyarətçilər tərəfindən ehtiyacların qarşılanması ilə əlaqədar idarə edilən bir müddətdə olan xidmət sahəsidir. Turizmin təbii resurslar əsasında və ondan asılı olaraq davamlı inkişaf etmə xüsusiyyəti mövcuddur. Ətraf mühitdən istifadə edərək turizmin inkişafı gələcək nəsillər üçün müəyyən problemlər yaratması haqqında nəzəriyyələr də mövcuddur. Turizmin təbii ətraf resursları ilə əlaqəsi, cüt istiqamətli bir əlaqə şəklindədir. Bir tərəfdən təbii ətraf resursları turizm sektoru üçün əsas gəlir mənbəyini formalaşdırır, digər tərəfdən turizm fəaliyyətləri, təbii ətraf resurslarının iqtisadi fəaliyyətlər məqsədi ilə istifadə edilməsinə yönəldilən fəaliyyətdir. Turizm ətraf mühitin qorunmasına söykənməklə bərabər gətirib çıxardığı sürətli və kütləvi inkişaf, ətraf mühitə mənfi təsir etməkdədir. Mövcud ərazi istifadəsinin dəyişməsi ilə bəzi bölgələrdə xüsusilə əkinçilik xüsusiyyətli torpaqlar itirilməkdədir. Bitki örtüyü və bütün təbii mühitin formaları, təbii mühitə uyğunlaşdırılmadan görülən tədbirlər ətraf mühitin korlanmasına və funksiyasını itirməsi ilə nəticələnməkdədir. Mövcud infrastrukturun qaldıra bilməyəcəyi kanalizasiya və zibil problemi və bu tullantıların



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

dənizə boşaldılması zamanı ortaya çıxan çirklilik, tarixi sahələrin, ictimai yerlərin ekoloji vəziyyətləri korlanmasına gətirib çıxarır. Bu zaman ekoturizmin inkişafı üçün görülən tədbirlər bu vəziyyətin qarşısını ala bilər.

Müasir dövrdə davamlı inkişaf, milli iqtisadiyyatın elə bir artımını nəzərdə tutur ki, onun sayəsində cəmiyyətin müasir tələbatlarını ödəyərkən gələcək nəsillərin artan tələbatlarının daha yaxşı ödəmək qabiliyyətini məhdudlaşdırmasın. Dünya ölkələrində qloballaşma şəraitində bəşəriyyətin resurslara olan tələbatlarının durmadan artması ilə yanaşı, onların istehsalının getdikcə baha başa gəlməsi, dünyada baş verən qloballaşma proseslərinin məntiqi nəticəsi olaraq ölkələrin qarşılıqlı asılılığının güclənməsi iqtisadi, sosial, demoqrafik və ekoloji problemlərin ümumbəşəri xarakter daşımasına səbəb olmuşdur. Turizm və bir bölgənin sosial-iqtisadi cəhətdən inkişaf etməsi arasında inkar edilə bilməyəcək dərəcədə əlaqə vardır. Turizm fəaliyyətlərinin birləşdiyi mədəni və təbii mirasa sahib ərazilərdə sağlıq və təhsil xidmətlərinin inkişafı ve infrastruktur işinin sürətlənməsi regionun inkişafına mane olmur. Mədəniyyətin və təbii gözəlliklərin təbliği nəticəsində turizm fəaliyyətlərinin artdığı ərazilərdə yerli məhsulların satışından əldə edilən gəlirin yaranması nəticəsində regionun sosial-iqtisadi inkişafına dolayı və yaxud da birbaşa təsiri mövcuddur.

**Naxçıvan Muxtar Respublikasında turizmin davamlı inkişafı**

Davamlı turizmin inkişafı nəticəsində görülən tədbirlər muxtar respublikaya turist axının daha da sürətləndirmişdir. Dünyanın müxtəlif ərazilərindən naxçıvana gələn turistlərin sayı mütəmadi olaraq artmaqdadır. Regionda davamlı turizmin inkişafı üçün əsas amil burada ekoturizmin formalaşmasını təmin etməkdir. Ekoturizmin yarım növlərindən biri də safari turizmidir. Safari turizminin tərkibinə ovçuluq; fotoovçuluq; balıq tutmaq; açıq havada heyvanları müşahidə etmək kimi yarım növlər daxildir. Təşkilatçılar ovçuluq turizmini heyvanların nəsli kəsilməsi prosesinin qarşısını almaq məqsədi ilə fotoovçuluq turizmi ilə əvəz etmişlər. Fotoovçuluğu eyni zamanda "sakit ov"-da adlandırırlar. Bu turizm yarım növü təbiətə ziyan vurmadan da istirahət etmək vərdişi formalaşdırır. Bu sahənin inkişafı üçün lazım olan bütün arqumentlər muxtar respublikanın təbiətində mövcuddur. Regionun təbiəti özünəxas xüsusiyyətləri olmaqla bərabər, həm də sirli olması ilə turistləri daha çox maraqlandırır. Ərazinin təbiəti geoloji cəhətdən araşdırıldıqda məlum olmuşdur ki, burada əvvəllər tropik meşələr mövcud olmuş, sonra iqlim dəyişikliyi nəticəsində indiki ərazi quruluşu formalaşmışdır. Ölkələr sahib olduqları turizm ehtiyatlarından maksimum səmərə ilə istifadə etməklə onun davamlılığına nail olmaq, bununla da, təbiət, cəmiyyət, iqtisadi inkişaf və ekoloji vəziyyət arasında sıx əlaqə yaradırlar. Muxtar respublikanın sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsinə yönəlmiş təbii və mədəni ehtiyatlardan istifadə məsələləri turizm sahəsində də davamlı inkişafa nail olmaq üçün əlverişli şərait formalaşdırmışdır.

Hazırkı vaxtda sosial iqtisadi inkişaf göstəriciləri arasında turizmin özünə məxsus çəkisi vardır. Hər bir ölkə mövcud olan turizm ehtiyatlarından maksimum formada istifadə etməklə, onun davamlı olmasına nail olmaqla, təbiət, cəmiyyət, iqtisadi inkişaf və ekoloji vəziyyət arasında münasibətlərin stabilləşməsinə şərait yaradır. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, əhalinin sosial rifah şəraitinin yaxşılaşmasına istiqamətlənən tədbirlərin görülməsi nəticəsində turizm sahəsində davamlı inkişafı əldə etmək üçün əlverişli şərait yaranmışdır. Belə bir formada inkişafı əldə etmək üçün və bunu daima stabil saxlamaq üçün müəyyən xətt üzrə faəliyyət proqramı hazırlanmışdır. Hər hansı bir regionda davamlı turizmin inkişafı həmin region üçün xarakterik turizm ehtiyatlarının özünəməxsus xüsusiyyətindən formalaşır. Regionun sosial iqtisadi inkişaf səviyyəsini nəzərə almaqla regionda təşkil olunan turizm xidmətləri region iqtisadiyyatında elə bir mövqe yaratmalıdır ki, onlar balanslı şəkildə iqtisadiyyatın digər sahələrinə də təsir göstərə bilsin. Bunun təşkili turizmin uzunmüddətli planlaşdırılması zamanı formalaşır. Naxçıvan Muxtar



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Respublikasında turizmin davamlı inkişafı üçün bütün imkanlar mövcuddur. Bu ilk növbədə regionda turizm ehtiyatlarının öz təbii formasını saxlaması, onların suni təsirlərə az məruz qalması ilə əlaqəlidir. Bu təsir dünya ölkələrinin əksəriyyətində çox olsa da, muxtar respublikada az olması davamlı turizmin inkişafının əsas xüsusiyyəti adlandırmaq olar. Bunun region üçün bir sərvət olması müsbət hal hesab etmək olar, bundan səmərəli istifadə edilməlidir. Bununla yanaşı gələcək nəsillərə miras olaraq ötürülməsi və qorunması vacib şərtdir. Muxtar Respublikada olan hər bir turizm ehtiyatının potensialından maksimum dərəcədə istifadə etməklə sosial, ekoloji maraqların kəsişməsi nəticəsində uzunmüddətli turizm planlaşdırılması aparılır. Turizm infrastrukturunun düzgün təşkil edilməsi, ekoloji vəziyyətə daim nəzarət edilməsi, tarixi və mədəni abidələrin qorunub gələcək nəsillərə ötürülməsi bu regionun turizminin inkişafını uzun müddət stabil vəziyyətdə saxlamasına gətirib çıxara bilər.

Regionda ekoturizmin inkişafı üçün xeyli sayda hidroloji məkanlar mövcuddur. Bura mineral su yataqları (muxtar respublikada 250-dən çox mineral su ehtiyatı var) ilə yanaşı, muxtar respublika ərazisində olan kəhrizlər və şəlalələri misal göstərmək olar. Bunun nəticəsində bura gələn turistlərin sayı artmaqdadır. Naxçıvan Muxtar Respublikasının təbiəti bura gələn turistləri özünə cəlb edir. Ona görə də burda olan turistlər tez-tez bura gəlib belə təbiət gözəlliklərini dəfələrlə görmək istəyirlər. Bu iqtisadi rayonun kəndlərində kənd turizminin inkişafı üçün çox güclü turizm potensialı mövcuddur. Kəndlərin abadlaşdırılması, yerli əhali ilə yanaşı, turistlərin də istifadə edə biləcəyi müasir sosial-infrastrukturun formalaşdırılması və yerli əhalinin sosial rifah səviyyəsinin yaxşılaşdırılması kənd turizminin inkişafı üçün şərait yaradır. Ümumiyyətlə turizm elə bir sahədir ki, müasir infrastruktur ilə sıx bağlılıq təşkil edir və eyni zamanda o olmadan turizmin inkişafından danışmaq qeyri mümkündür. Ekoturizmin təşkilində əsas amillərdən biri təbiətlə ünsiyyət və bu ünsiyyətin nəticəsində ekoloji tərbiyə məsələlərinin nəzərə alınması məsələsidir. Davamlı turizmin inkişafı nəticəsində inkişaf edən turizm növlərindən biri də ekoturizmin bir yarım növü olan kənd-yaşıl turizmidir. Bu turizm növünün əsas xüsusiyyəti insanların şəhər həyatından uzaqlaşıb, yaşıl təbiət qoynunda istirahət etməklə formalaşan fəal turizm xidmətlərini özündə birləşdirən kompleks tədbirlərin həyata keçirilməsi prosesidir. Bura turistin yerləşdirilməsi, qida, gəzinti, əyləncə, bələdçilik, ticarət, nəqliyyat və s. turistin rahat olması üçün bu tipli xidmətləri özündə birləşdirən turizm məhsulunun elementləri daxildir. Bu turizm növünün inkişaf etməsi həmin kəndin yerli əhalisinin gəlirinin və yaxud da əlavə gəlirinin formalaşmasına şərait formalaşdırır. Kənd turizmini başqa turizm növlərinə nisbətən iqtisadi cəhətdən çox sərfəli, həm də regionun inkişafını (xüsusilə iqtisadi cəhətdən inkişaf etməsinin vacib olan ərazinin yəni kənd ərazi quruluşunun) stimullaşdıran bir turizm növü hesab etmək olar. Buda xərclərin az olmasına, proqnozlaşdırılan gəlirlərin isə çox olmasına gətirib çıxarır. Kənd-yaşıl turizmin təşkili nəticəsində digər turizm növlərinə nisbətən viza, rezervasiya, yerli əhali üçün xarici dil bilməyin zəruriliyi, təhlükəsizlik kimi problemlərlə demək olar ki, qarşılaşılmır. Turizmin bu növünün inkişafı nəticəsində kəndin yerli əhalisinin öz mülkiyyətində olan evinin ya da ki, həyətinin müəyyən bir ərazisini kirayə verən və turistlərin qidalanmasını təşkil edən yerli əhalinin güclü gəlir mənbəyi formalaşır. Muxtar respublikada kəndlərdə olan infrastrukturun yaxşılaşdırılması, hətta ucqar kəndlərin belə fasiləsiz işıq və qazla təmin edilməsi, yollarının yüksək səviyyədə çəkilməsi və yaxud da təmir olunması nəinki, turizmin bu növünün inkişaf etməsinə, hətta bütün regionun sosial-iqtisadi inkişafının formalaşmasına gətirib çıxarır. Kənd turizmi ümumilikdə baxdıqda mövsümi turizm hesab edilir, onun təşkil olunması üçün çox ciddi reklam və ya təbliğata ehtiyac yoxdur. Təkcə həmin yerin tanıdılması üçün yaxşı şərait yaradılan həmin ev və ya villanın məlumatlarının



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

(şəkil, həmin yeri kirayə verən şəxs haqqında məlumatlar-adı, əlaqə telefonu və s.) internetə yüklənməsidir. Bu turizm növünün cəlb edici edən əlamətlər əsasən sadə kənd həyatı, şəhərdə olan səs-küydən müəyyən müddətliliyə də olsa uzaqlaşmaq istəyi, bağçılıq və bostançılıq işlərinin görülməsi, bundan zövq alınması, özlərinin becərdikləri meyvə-tərəvəzlərdən istifadə etmək istəyinin formalaşması və s. bu kimi istəklərin olmasıdır.

Regionda kənd turizminə aid çox geniş potensial mövcuddur. Bu əsasən şəhər əhalisinin fəal istirahətə meyl etməsi, eyni zamanda kənddə baş verən hərtərəfli inkişaf ilə sıx bağlıdır. İnfrastrukturun yaxşılaşması şəhər əhalisinin gəlirləri ilə kənd əhalisinin gəlirləri arasında fərqin azalmasına şərait yaradır. Bunun başlıca səbəbi şəhərdən gələn qonaqlara kirayə evlərin verilməsi, onlara satılan yüksək keyfiyyətli ərzaq məhsullarından əldə olunan gəlirlər hesab edilir. Bunlarla yanaşı gələn qonaqların kənddə başqa xidmətlərdən (avtotəmir, gözəllik salonu və s.) də istifadə etməsi onların da gəlirinin artmasına şərait yaradır. Kənd turizmi fərdi təşəbbüskarlığın nəticəsində yaradılan istirahət komplekslərinin fəaliyyəti nəticəsində formalaşır. Bura gələn qonaqların istirahətinin təşkili üçün kompleks istirahət mərkəzlərinin formalaşdırılması kəndlərin turizm potensialının üzə çıxarılmasına və yerli sahibkarların bu işi görməyə stimullaşdırmasına təkan verir.

Ümumi baxımdan turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla əlaqəli olduğundan əlavə, həm də həmin regionun siyasi sabitlik vəziyyətindən də asılıdır. Bu iki amilin Naxçıvan regionunda mövcud olması, bu regionun cinayətsiz region kimi formalaşması turistlərin axınını daha da artırır. Bunlarla yanaşı, regionda ölkədaxili və ya beynəlxalq tədbirlərin keçirilməsi, idman yarışlarının təşkil olunması turizmin davamlı inkişafını formalaşdırır. Belə tədbirlərin keçirilməsi bu regiona gələn turistlərin sayının artmasına, sosial iqtisadi inkişafa birbaşa təsir edir. Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı elan olunması, Azərbaycanın Gənclər Paytaxtı seçilməsi muxtar respublikaya gələn turistlərin sayının artmasına gətirib çıxarmışdır. Bunun nəticəsidir ki, 2018-ci ildə 300-minə yaxın turist Muxtar Respublikaya səfər etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri V.Talıbovun 31 yanvar 2018-ci il tarixli Sərəncamına əsasən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması turizmin inkişafında yeni dövrün başlamasının təzahürüdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri V.Talıbov 23 aprel 2018-ci il tarixli Sərəncamı nəticəsində Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin yaradılması turizmin davamlı inkişafına stimul yaradır. Bu Sərəncama əsasən turizm sahəsində idarəçiliyinin təkmilləşdirilməsi üçün müəyyən islahatlar həyata keirilir. Bunun üçün də regionda əlverişli, komfort şəraitə malik ərazilərin tədqiqi və buradakı mövcud şərtlərin rekreasiya qiymətləndirilməsi vacib şərtlərdən hesab edilir. Naxçıvan Muxtar Respublikasının müxtəlif əraziləri özünün təbii-iqlim şəraiti, relyef quruluşu və onlardan istifadə imkanlarına görə rekreasiya fəaliyyəti üçün əlverişli hesab edilir. Muxtar respublikada mövcud olan müalicə, ekoturizm və digər təbiətyönümlü turizm ehtiyatları hesabına müxtəlif məzmunlu turizm-rekreasiya xidmətləri həyata keçirilir. Belə yerlərdən biri də Şahbuz rayonu Ağbulaq kəndində yaradılan Ağbulaq Kənd Turizm İstirahət Kompleksidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında 29 noyabr2018-ci il tarixli Sərəncamına əsasən Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılmış, kənd abadlaşdırılmış və infrastrukturu yaxşılaşdırılmış, 65 ev yenidən qurularaq müasir şəraitlə təmin edilərək turistlərin istifadəsinə verilmişdir. Həmçinin burada Ağbulaq Xizək Mərkəzinin yaradılması üçün də müəyyən işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin turist marşrutunun xəritəsi çəkilmiş, kənddə yaradılmış müasir infrastruktur və geniş turizm potensialının mövcud olması haqda məlumatlar Azərbaycanda və 20-dən çox



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xarici ölkədə fəaliyyət göstərən 163 mehmanxana və turoperatorun elektron poçt ünvanlarına göndərilmişdir (4).

**Nəticə**

Bu bölgənin cazibədar təbii şəraiti, dəniz səviyyəsindən hündürlüyü, bitki örtüyü və canlı aləmi ərazinin istənilən hissəsində müxtəlif məzmunlu istirahət proqramları təşkil etməyə şərait formalaşdırır. Ağbulaq kəndində aparılan geniş infrastruktur yenilənməsi işləri yerli sakinlərin rahat yaşayışı ilə yanaşı bura gələn turistlərin istirahətinin yüksək səviyyədə təşkil olunmasına imkan yaradır. Burada yay və qış turizminin inkişafı üçün yaxşı şərait mövcuddur. Ağbulaq kəndi və onun ətraf əraziləri ekoloji cəhətdən təmiz olduğuna görə burda ekoturizmin inkişafı üçün müəyyən şərait mövcuddur. Bu kənddə təqdim edilən keyfiyyətli yerli məhsullar turistləri daha çox razı salır.

**Ədəbiyyat**


1. TUSİAD Sürdürülebilir turizm çalıştayı katılımcılar “Sürdürebilir turizm” Eylül 2012, Tepebaşı-İstanbul.
2. Ə.Q.Əlirzayev “Turizmin iqtisadiyyatı və idarə edilməsi” Bakı-2010
3. S.Mete, A.Karaman“Turistik destinasyon çerçevesinde sürdürülebilir turizm yönetimi ve pazarlaması” İstanbul – 2015.
4. Naxçıvan Turizm İnformasiya Mərkəzi: http://turizm.nakhchivan.az/




***Турал Мамедов***

***Основные особенности развития устойчивого туризма в Нахчыванской Автономной Республике***

***Резюме***

*В этой статье представлена некоторая информация о применении термина «Устойчивое развитие» в Нахчыванском экономическом регионе.*

***Ключевые слова:*** *экотуризм, туристический продукт, туристические ресурсы, сельский туризм.*

***Tural Mammadov***

***The main features of sustainable tourism development in Nakhchivan Autonomous Republic***

***Resume***

*This article provides some information on the application of the term "Sustainable Development" to tourism and the direction of tourism development in the Nakhchivan economic region.*

***Key words:*** *Ecotourism, tourism product, tourism resources, rural tourism*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 03.04.2020.***
***Çapa qəbul olunub: 10.04.2020.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*